# Azərbaycan Respublikası Vergilər Nazirliyi və Estoniya Vergi və Gömrük Şurası arasında vergi orqanlarının fəaliyyəti sahəsində əməkdaşlığa dair Memorandum

Bundan sonra «Tərəflər» adlandırılacaq Azərbaycan Respublikası Vergilər Nazirliyi və Estoniya Vergi və Gömrük Şurası,

vergi orqanları arasında əməkdaşlığın genişləndirilməsinin hər iki Tərəf üçün faydalı olacağına və ölkələr arasında əlaqələrin güclənməsinə kömək edəcəyinə inanaraq;

vergitutmanın idarə olunması sahəsində ikitərəfli əməkdaşlığın əhəmiyyətini anlayaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

### *Maddə 1*

Tərəflər vergi orqanlarının işinin təşkili, idarə olunması (menecment), vergi inzibatçılığı, informasiya texnologiyalarının tətbiqi, vergi işçilərinin treninqi, vergi ödəyiciləri ilə qarşılıqlı əlaqələr, tədris proqramlarının hazırlanması və həyata keçirilməsi və digər fəaliyyət sahələrində təcrübə mübadiləsi aparacaqlar.

### *Maddə 2*

İkitərəfli əməkdaşlıq seminarlar, nümayəndə heyətlərinin səfərləri, fərdi görüşlər və ya Tərəflərin təyin etdiyi səlahiyyətli nümayəndələrin müəyyən etdiyi digər formalarda (bundan sonra «tədbirlər» adlanır) həyata keçirilir.

### *Maddə 3*

Hər bir Tərəf öz nümayəndələrinin tədbirlərdə iştirakı ilə bağlı xərcləri öz üzərinə götürür.

### *Maddə 4*

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Memoranduma onun ayrılmaz hissəsi olan və bu Memorandumun 5-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən ayrıca Protokollarla rəsmiləşdirilən dəyişikliklər və əlavələr edilə bilər.

Bu Memorandumun tətbiqi ilə bağlı yaranan mübahisələr Tərəflər arasında məsləhətləşmələr və danışıqlar yolu ilə həll ediləcəkdir.

### *Maddə 5*

Bu Memorandum hər iki Tərəf onu imzaladıqdan sonra, Tərəflərin zəruri daxili milli prosedurların yerinə yetirilməsi haqqında bildirişlərindən sonuncusunun diplomatik kanallarla alındığı tarixdə qüvvəyə minəcəkdir. Bu Memorandum qeyri-müəyyən müddətə bağlanır. Bu Memorandumun qüvvəsi Tərəflərdən birinin yazılı bildirişinə əsasən istənilən vaxt ləğv edilə bilər və bu halda Memorandum, Tərəflərdən birinin digərinə qüvvədən düşmə haqqında yazılı bildiriş təqdim etdiyi aydan sonrakı ayın ilk günündən etibarən qüvvədən düşmüş hesab edilir.

Bu Memorandum Bakı şəhərində 2009-cu il 27 aprel tarixində iki nüsxədə, hər biri Azərbaycan, eston və ingilis dillərində imzalanmışdır. Bütün mətnlər bərabər autentikdir. Təfsir zamanı fikir ayrılığı yarandıqda, ingilis dilindəki mətn əsas götürüləcəkdir.

| | |
|---|---|
| ***Azərbaycan Respublikası Vergilər Nazirliyi adından*** | ***Estoniya Vergi və Gömrük Şurası adından*** |
| ***(imza)*** | ***(imza)*** |

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (30 iyun 2009-cu il, № 6 (144), maddə 466) («VneshExpertService» LLC).***

***Azərbaycan Respublikası Prezidentinin 24 iyun 2009-cu il tarixli, 341 nömrəli sərəncamı ilə təsdiq edilmişdir («VneshExpertService» LLC).***

*© VneshExpertService LLC*